Bülleten No: 10 / oktyabr 2013

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

OKTYABR 2013

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




ISO 9001 SGS SYSTEM CERTIFICATION
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi işə başlamışdır



**Sentyabrın 17-də "Bakı Expo" Sərgi Mərkəzində Azərbaycanın son 10 ildə əldə etdiyi uğurlara həsr olunmuş "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi fəaliyyətə başlamışdır.**

Sərginin 3 pavilyonunda ölkəmizin sənaye, energetika, İKT, kənd təsərrüfatı, sahibkarlıq, regionların sosial-iqtisadi inkişafı, nəqliyyat, turizm, fövqəladə hallar, şəhərsalma, səhiyyə, elm və təhsil, mədəniyyət, gənclər və idman, ekologiya, su və kanalizasiya və digər sahələrdə qazandığı nailiyyətlər, eləcə də müxtəlif kənd təsərrüfatı və sənaye məhsulları nümayiş etdirilir.

Ziyarətçilər sərginin açıq havada təşkil edilən hissəsində bir sıra texnika və avadanlıqlar, Azərbaycanda istehsal olunan məhsullarla tanış ola bilərlər.

Sərgi çərçivəsində müxtəlif dövlət qurumlarının günlərinin keçirilməsi də nəzərdə tutulmuşdur.

"Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi oktyabrın 15-dək davam edəcək.

# Həm ziyarət, həm ticarət - sərgidə bir sənədlə "Elektron hökumət" portalında qeydiyyatdan keçə bilərsiniz

**Dövlət qurumlarının təqdim etdikləri elektron xidmətləri cəmləşdirən vahid portalda (www.e-gov.az) hələ də qeydiyyat keçməyənlər məsələni oktyabrın 15-nə qədər daha rahat şəkildə həll edə bilərlər. Bunun üçün həmin tarixə qədər "Bakı Expo" Sərgi Mərkəzində davam edəcək sərgidə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən ziyarətçilərə müvafiq şərait yaradılıb.**

Belə ki, Azərbaycanın son 10 ildə əldə etdiyi uğurlara həsr olunmuş "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisində ziyarətçilər yalnız şəxsiyyət vəsiqəsini təqdim etməklə "Elektron hökumət" portalında qeydiyyata düşə bilərlər.

Qeyd edək ki, "Elektron hökumət" - dövlət qurumları tərəfindən əhaliyə xidmət göstərilməsinin yeni üsuludur. "E-hökumət" - vətəndaşlara dövlət tərəfindən verilən xidmətlərin elektron mühitdə təqdim edilməsi deməkdir. Burada dövlət xidmətləri vətəndaşa ən asan, ən qısa zaman ərzində çatdırılır. "E-hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır.

Xidmətlərin vahid portal üzərindən təqdim edilməsi hər birimizə vaxta qənaət, əlverişli, sürətli, keyfiyyətli, fasiləsiz, etibarlı, şəffaf, rahat xidmətlərdən faydalanmaq kimi üstünlüklər verir.




www.e-gov.az

# Dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılması və ya işlənilməsinə görə cərimə tətbiq ediləcək

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlarla bağlı növbəti statistikanı açıqlayıb. 01.09.2013-cü il tarixə bütün qurumlar üzrə dövlət informasiya ehtiyatlarının sayı 35, fərdi məlumatların informasiya sistemləri 80 olmaqla, cəmi 115-dir.**

Qeyd edək ki, "www.e-gov.az" portalında yaradılan bu xüsusi bölmə Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə" və "Fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması və dövlət qeydiyyatının ləğv edilməsi Qaydaları"nın icrasını təmin etmək məqsədilə yaradılıb.

Bölmə vasitəsilə dövlət informasiya ehtiyatları və fərdi məlumatların informasiya sistemləri üzrə yeni məlumatların reyestrlərə daxil edilməsi, reyestrlərdə mövcud olan məlumatlarda dəyişiklik edilməsi və ya ləğv edilməsi üçün elektron müraciətlərin göndərilməsi, kargüzarlığın aparılması, müraciətlərin icrası və mülkiyyətçilərin müvafiq qaydada məlumatlandırılması nəzərdə tutulur.

Yaradılan reyestrlər həmçinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanından irəli gələn vəzifələrin tam şəkildə icrasının təmin olunması üçün də vacibdir. Əsasnamənin 13-cü bəndinə əsasən yeni yaradılan, quruluşunda dəyişikliklər aparılan, fəaliyyəti dayandırılan informasiya ehtiyatları haqqında məlumatların Dövlət Reyestrinə daxil edilməsi və ya müvafiq düzəlişlərin edilməsi üçün lazımi sənədlər (müraciət ərizəsi və qeydiyyat kartı) müraciət edən tərəfindən 20 gündən gec olmayaraq Reyestrin operatoruna təqdim edilməlidir.

Nazirlər Kabinetinin 17 dekabr 2010-cu il tarixli 237 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınması tələb olunmayan fərdi məlumatların informasiya sistemləri"nin müddəalarına uyğun olaraq, tərkibində 1000 və daha artıq subyekt barədə fərdi məlumatlar olan informasiya sistemləri məcburi qaydada dövlət qeydiyyatına alınmalıdır.

Bununla əlaqədar olaraq, mərkəzi icra hakimiyyəti orqanlarından, habelə onların strukturuna daxil olan və ya tabeliyində olan struktur bölmələrdən, müəssisələrdən, agentliklərdən, otellərdən, təhsil-tədris mərkəzlərindən və təşkilatlardan mülkiyyətçisi olduğu və qanunvericiliklə dövlət reyestrlərində qeydiyyata alınması tələb olunan dövlət informasiya ehtiyatları və fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması məqsədilə RİTN-in Məlumat-Hesablama Mərkəzinə müraciət etməlidirlər. Əks halda, İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq ediləcək.

# "Elektron Hökumət" portalına daha bir elektron xidmət inteqrasiya edildi

**Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi (ƏƏSMN) "Sosial müavinətlərin və təqaüdlərin hesablanması üzrə sosial kalkulyator" adlı elektron xidmətini "Elektron hökumət" (www.e-gov.az) portalı vasitəsilə təqdim etdi.**

Portalda qeydiyyatdan keçmədən ƏƏSMN-nin sözügedən xidmətini seçdikdən sonra təqdim olunmuş xanalarda tələb olunan məlumatları dolduraraq elektron xidmətdən yararlanmaq mümkündür (https://services.e-gov.az/services/xforms-query.action?service=voen1700093011-complex.Xidmet12.v1&portal=&supressEmptyParameters=true).

**Qeyd:** Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra müavinət təminatına dair çoxsaylı normativ hüquqi aktlar qəbul olunmuş, onun bir çox yeni növləri müəyyən edilmişdir. Lakin 01 yanvar 2006-cı ilə qədər ölkəmizdə sosial müavinətlərlə bağlı münasibətlər müxtəlif qanunvericilik aktları ilə tənzimlənmiş, bu sahədə vahid normativ akt mövcud olmamışdır. Sosial təminat sisteminin təkmilləşdirilməsi məqsədilə 07 fevral 2006-cı ildə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunlarının qəbul edilmişdir. Beləliklə, 01 yanvar 2006-cı ildən etibarən ölkəmizdə sosial müavinətlərin təyin olunması və verilməsininin hüquqi əsasları "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunun tənzimlənir. Azərbaycan Respublikasının Konstitusiyasının 38-ci maddəsinə əsasən qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə və qanunla nəzərdə tutulmuş digər hallarda hər kəsin sosial təminat hüququnun olması bəyan edilir. Məhz Konstitusiyanın 38-ci maddəsi sosial müavinətlərin hüquqi əsaslarını təşkil etmişdir.

Qanuna əsasən sosial müavinətlər təqdim olunma əsaslarından asılı olaraq iki qrupa - aylıq müavinətlər və birdəfəlik müavinətlərə ayrılır. Sosial müavinətlərin məbləği Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları ilə müəyyən edilir.

Eyni zamanda "Ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 noyabr 1997-ci il tarixli 641 nömrəli Fərmanı respublikamızda təqaüd təminatının başlanğıcı qoyulmuşdur.

Hal-hazırda respublikamızda ayrı-ayrı kateqoriya vətəndaşların ölkə qarşısında xidmətlərinin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müxtəlif Fərman və Sərəncamlarına əsasən Azərbaycan Respublikası Prezidentinin təqaüdləri təyin olunaraq ödənilir.



# Məhkəmə sistemində şəffaflığın artırılması üzrə əsaslı tədbirlər görülür

www.e-gov.az

**Ölkəmizdə məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mütərəqqi islahatların davam etdirilməsi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında İKT tətbiqini zəruri edir. Bu sahədə bir çox tədbirlər həyata keçirilir, yeni məhkəmə binaları müasir qurğu və idarəetmə proqramları ilə təchiz edilir. Sürətli sosial-iqtisadi dəyişikliklər, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi məhkəmə sistemində də yeni iş üsul və vasitələrinin, bu sahədə yeniliklərin tətbiqini zəruri edir.**

Elektron imzanın tətbiqi elektron sənəd dövriyyəsinə keçiddə ən effektiv həll hesab edilə bilər. Belə ki, elektron imza ilə imzalanmış sənədlər bir neçə saniyə ərzində lazım olan yerə çatdırıla bilər. Elektron sənəd mübadiləsinin bütün iştirakçıları bir-birindən müxtəlif uzaqlıqda olmalarına baxmayaraq eyni imkanlar əldə edirlər. Elektron imzanın istifadəsi zamanı sənədlər adi kağız sənədlər kimi hüquqi qüvvəyə malik olur.

"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununa əsasən Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, elektron imza və elekton sənəd müvafiq vasitələr tətbiq olunmuş bütün fəaliyyət sahələrində istifadə oluna bilər. Elektron sənəd vasitəsilə rəsmi və qeyri-rəsmi yazışmalar, hüquqi məsuliyyət və öhdəliklər doğuran sənəd və informasiya mübadiləsi aparıla bilər.

Məhkəmə sisteminin dinamik inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi, normativ- hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması məqsədi ilə ölkə başçısı cənab İlham Əliyevin 6 fevral 2009-cu il tarixli sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı"ı təsdiq edilmiş və həmin proqramın əsas vəzifələrindən biri kimi məhkəmələrdə yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi işinin sürətləndirilməsi, müasir tələblərə cavab verən yeni iş prosesinin təşkil edilməsi və vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi göstərilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 5 sentyabr 2012-ci il tarixli "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Sərəncamı ilk növbədə vətəndaşların dövlət hakimiyyət orqanlarına müraciətlərinin asanlaşdırılması, insan hüquqlarının dövlət orqanları tərəfindən etibarlı təmin edilməsini nəzərdə tutan fundamental aktlardandır.

Məhkəmə fəaliyyətinin təhlili göstərir ki, hazırda məhkəmələrdə ən mühüm problemlərdən biri proses iştirakçılarının məhkəmə iclasının yeri və vaxtı barədə lazımi qaydada məlumatlandırılmasıdır. Təhlil göstərir ki, müxtəlif səbəblərdən (qanunsuz tikililərin mövcudluğu, tərəflərin faktiki ünvanlarının dəqiq müəyyən edilməməsi və s.) məhkəmə bildirişlərinin vaxtında çatdırılmaması məhkəmələrdə işlərə baxılarkən çəkişmə prinsipinə əməl edilməməsi ilə nəticələnir, işlərə qanunla müəyyən edilmiş müddətdə baxılmasında çətinliklər yaradır.

Bununla əlaqədar Məhkəmə Hüquq Şurası və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən "elektron məhkəmə bildirişlərinin tətbiqinə dair" Konsepsiya hazırlanmış, onun əsasında yeni bir proqram - "Elektron-məhkəmə məlumat sistemi" işlənərək sınaq dövrü üçün ilkin tətbiq edilməkdədir.

Yuxarıda qeyd etdiyimiz Proqram artıq Bakı şəhərinin bəzi məhkəmələrində (Binəqədi Rayon və Xəzər Rayon məhkəmələrində) hakimlər tərəfindən tətbiq edilir. Proqramın mükəmməl formada tətbiqini reallaşdırmaq üçün "Elektron Hökumət Portalı" (e-gov.az) ilə əməkdaşlıq sahədə böyük nailiyyətlərin əldə edilməsinə səbəb oldu.

Bu Proqram tətbiq edildiyi zamandan birinci instansiya məhkəmələrinə daxil olan işlər üzrə dəftərxana işçisi tərəfindən ilkin olaraq elektron qeydiyyat uçotu təşkil edilir. Həmin elektron qeydiyyat uçotunda hakimə yazılan mülki işin nömrəsi, iddiaçı və cavabdeh barədə lazımi məlumatlar, həmçinin onların iddia ərizələrində qeyd edilən mobil telefon nömrələri və elektron poçt ünvanı qeyd edilir. Göstərilən ilkin hərəkətlərdən sonra həmin işlər, hakimlərə təqdim edilir və beləliklə həm də işlərin hakimlər arasında bölüşdürülməsinin elektron vasitə ilə həyata keçirilməsi təmin edilir. Belə ki, iş üzrə məlumatlar daxil edildikdən sonra proqramın özü növbəlilik qaydasında işi hakimə yönəldir. Bununla da, hakim Proqram üçün nəzərdə tutulmuş elektron səhifəyə daxil olmaqla həmin iş üzrə lazımi informasiya almaqla bərabər təxminən 2-3 dəqiqə ərzində forması əvvəlcədən avtomatik müəyyən olunan elektron məhkəmə bildirişini tərəfin mobil telefon nömrəsinə və elektron poçt ünvanına göndərir. Bununla da bu sahədə operativlik və dəqiqlik ən yüksək səviyyədə təmin edilmiş olur.

Qeyd edilməlidir ki, göndərilən elektron bildirişlər hakimlərin elektron imzası ilə təsdiq olunur, qeydiyyata götürülür və vətəndaşlar istədiyi vaxt ona göndərilən elektron bildirişlərlə "e-gov" saytı vasitəsilə tanış olurlar.

Əlbəttə ki, təcrübədə müəyyən hallar olur ki, iddia ərizələrində tərəflərin mobil nömrələri qeyd edilmir və ya iddiaçı cavabdehin mobil nömrəsini bilmir. Bu cür halların aradan qaldırılması üçün də hər bir hakim üçün "elektron imza" plastik kartı təqdim edilmişdir. Həmin kart vasitəsilə hakim "Elektron Hökumət Portalı" (e-gov.az) saytına daxil olaraq onun adına rəsmiləşdirilmiş pin kodu daxil edərək, iş üzrə istənilən şəxs barədə şəxsiyyət vəsiqəsində qeyd edilən məlumatları, o cümlədən ünvanını, eləcə də onun adına rəsmiləşdirilmiş aktiv olan mobil nömrələri öyrənə bilər.

Göstərilən Proqramın lazımi səviyyədə tətbiqi ədalət mühakiməsinin həyata keçirilməsi zamanı tərəflərin məhkəmə iclaslarına gəlmələrinin etibarlı təmini vasitəsilə məhkəmənin qarşıya qoyduğu başlıca məsələyə - həqiqətin müəyyən edilməsinə kömək olacaqdır. Məhkəmə iclasının vaxtı və yeri barədə məhkəmə bildirişlərinin elektron göndərilməsi təmin edə biləcək vahid elektron-məhkəmə məlumat sistemi tətbiqi zamanı aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

➔ *vətəndaşların məhkəmə prosesləri barədə etibarlı məlumatlandırılması həyata keçiriləcək;*

➔ *məhkəmələrdə iş vaxtına qənaət ediləcək;*

➔ *vətəndaşlara göstərilən elektron xidmətlərin dairəsi genişləndiriləcək;*

➔ *məhkəmə sistemində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sürətləndiriləcək;*

➔ *dövlətin elektron imza layihəsinin məhkəmə sistemində tətbiqi reallaşacaq;*

➔ *hakimin icraatında olan mülki, cinayət və digər işləri obyektiv araşdırmaq və onları hərtərəfli öyrənmək imkanı artaraq ümumi iş səviyyəsinin keyfiyyəti yüksəldiləcək;*

➔ *dövlət büdcəsindən poçt rabitə orqanları üçün ayrılan vəsaitin nəzərə çarpacaq dərəcədə azaldılması təmin ediləcəkdir;*

➔ *məhkəmə sistemində kağız sənəd mübadiləsinin çəkisi azalacaqdır;*

➔ *məhkəmə proseslərinin çəkişmə prinsipi təmin ediləcək;*

➔ *vətəndaşların məhkəmələrə müraciətləri asanlaşacaq;*

➔ *tərəflərin məhkəmə iclaslarında iştirak etmək hüquqları daha etibarlı təmin ediləcək;*

➔ *vətəndaşlar məhkəmə baxışının aşkarlığı və çəkişmə prinsipindən daha səmərəli yararlanacaqlar;*

➔ *səmərəli məhkəmə araşdırılması hüququ gerçəkləşəcək və s.*

Bununla əlaqədar uğurlu və səmərəli yeniliyin tətbiqinin təşkilatçılarına, o cümlədən Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinə proqramın tətbiqindən yararlanan hakimlər adından öz dərin minnətdarlığımızı bildirik.

Ümidvarıq ki, dövlət başçısı tərəfindən vətəndaşların hüquq və mənafelərinin müdafiəsi, onların öz hüquqlarından istifadəsini sadələşdirmək məqsədilə həyata keçirilən islahatlar nəticəsində işlənmiş bu lahiyənin tətbiqində, həm də gələcəkdə tətbiqi nəzərdə tutulan layihələrin reallaşdırılmasında səmərəli əməkdaşlıq və qarşılıqlı fəaliyyət daim yüksələn xətt üzrə inkişaf edəcəkdir.

**Hüseyn Səfərov,**
*Bakı şəhər Binəqədi Rayon Məhkəməsinin hakimi*

## Dövlət orqanları tərəfindən elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında istifadəsinə keçid etmiş qurumlar:

| |
|---|
| **Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** |
| **Əmlak Məsələləri Dövlət Komitəsi** |
| **Dövlət Sosial Müdafiə Fondu** |
| **Səhiyyə Nazirliyi** |
| **Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi** |

## Səhiyyə Nazirliyinin növbəti xidməti "Elektron hökumət" portalı vasitəsilə istifadəyə verildi

**Səhiyyə Nazirliyi "Doğum haqqında tibbi şəhadətnamə" elektron registrindən məlumatların verilməsi adlı növbəti elektron xidmətini "Elektron hökumət" (www.e-gov.az) portalı vasitəsilə istifadəyə verdi.**

Xidmətdən istifadə etmək üçün portala giriş edərək, nazirliyin müvafiq bölməsinə daxil olmaq lazımdır. Həmin bölmədən sözügedən elektron xidməti seçdikdən sonra valideynin (ananın) yeni doğulmuş övladı haqqında şəhadətnamə surətini əldə etməsi mümkündür.

## Dövlət Sosial Müdafiə Fondunun daha bir elektron xidməti istifadəyə verildi

**"Elektron hökumət" (www.e-gov.az) portalına inteqrasiya olunan elektron xidmətlərin sayı sürətlə artır. Dövlət Sosial Müdafiə Fondunun növbəti elektron xidməti portala daxil edilib.**

«Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi" adlı xidmət vasitəsilə sığorta edən portalda tələb olunan boşluğa hesab nömrəsini daxil etməklə məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənişini həyata keçirə bilər.

Qeyd edək ki, sözügedən xidmət DSMF-nin portal vasitəsilə istifadəyə verdiyi 6-cı elektron xidmətidir.

# Səhiyyə Nazirliyi ilin sonuna qədər bütün elektron xidmətlərin tətbiqini planlaşdırır

***"Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi üzrə Tədbirlər Planı" üzrə bəndlərdən biri də ölkədə "Elektron səhiyyə, elektron təhsil, elektron satınalma, elektron turizm, elektron notariat, elektron mədəniyyət, elektron arxiv, elektron məhkəmə, elektron ticarət, elektron ödəmə həllərinin tətbiqinin genişləndirilməsi"dir. Müvafiq bəndin icrası isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Milli Arxiv İdarəsi, Satınalmalar üzrə Dövlət Agentliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə həvalə edilib. Hazırda sözügedən sahələrdə aparılan işlərin bir istiqaməti səhiyyə sistemi ilə bağlıdır. Bəs bu sahədə hansı yeniliklər gözlənilir?***

**Pasiyentlər, vətəndaşlar da elektron xidmətlər vasitəsilə bu məlumat bazalarından yararlana bilərlər**

Səhiyyə Nazirliyi (SN) tərəfindən ilin sonuna qədər bütün elektron xidmətlərin tətbiq edilməsi nəzərdə tutulur. Bu barədə məlumat verən SN-nin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru Cəbrayıl Əsədzadənin sözlərinə görə, hazırda səhiyyə sisteminin müxtəlif sahələrində informasiya texnologiyalarının tətbiqi geniş yer alıb: "Yeni informasiya sistemləri tətbiq edilir, məlumat bazaları, tibbi registrlər yaradılır. Bütün səhiyyə işçiləri bu sistemlərdən istifadə edərək, işlərini daha da yüngülləşdirirlər. Pasiyentlər, vətəndaşlar da elektron xidmətlər vasitəsilə bu məlumat bazalarından yararlana bilərlər".

**Səhiyyə sistemində 38 elektron xidmətin yaradılması nəzərdə tutulur**

Ümumiyyətlə, Səhiyyə Nazirliyində 38 elektron xidmətin yaradılması nəzərdə tutulur: "Elektron xidmətlərin artıq 20-dən çoxu "Elektron hökumət portalı, eyni zamanda nazirliyin rəsmi saytı vasitəsilə istifadəyə verilib. Onların sırasında həm tibb işçilərinə, həm də vətəndaşlara çox yararlı olan xidmətlər mövcuddur". Onun sözlərinə görə, hazırda təqdim edilən elektron xidmətlər sırasında həm məlumat tipli-informativ, həm də interaktiv xidmətlər var: "Məsələn, ən çox müraciət edilən elektron xidmətlərimizdən biri də "Dərman vasitələri haqqında məlumatın verilməsi"dir.Xidmətin məzmunu Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından keçirilmiş dərman vasitələrinin ticarət adı (əmtəə nişanı), beynəlxalq patentləşdirilməmiş adı, buraxılış forması, istehsalçısı, dövlət qeydiyyatının tarixi, nömrəsi və qüvvədə olma müddəti haqqında məlumatların istifadəçilər tərəfindən əldə olunmasından ibarətdir".

**Hər bir doğulan uşağın şəhadətnaməsi eyni informasiya sistemindən əldə olunur**

Cəbrayıl Əsədzadə Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi tərəfindən son illər "Doğum haqqında tibbi şəhadətnamə"nin elektron registri yaradıldığını da qeyd edib: "Özəl və ya dövlət tibb müəssisəsində anadan olmasından asılı olmayaraq, hər bir doğulan uşağın şəhadətnaməsi eyni informasiya sistemindən əldə olunur və onunla bağlı məlumatlar informasiya sistemində - elektron registrdə qeydiyyata düşür. Elektron registr vasitəsilə yeni doğulan körpəyə tibbi şəhadətnamə çap edilərək verilir. Bunun əsasında valideyn qeydiyyat şöbəsində uşağına "Doğum haqqında şəhadətnamə" alır"

**Tibbi şəhadətnamənin surətini itirənlər elektron xidmət vasitəsilə onu daha sadə yolla əldə edə bilirlər**

Belə ki, hazırda sözügedən portallar vasitəsilə qeydiyyatdan keçən ana tibbi şəhadətnamənin surətini əldə edə, eyni zamanla uşaqla bağlı istənilən məlumata baxa bilər: "Bu sənəd itirildiyi zamanda, həmçinin tibbi şəhadətnamənin surətinin əksər yerlərdə tələb olunduğunu da nəzərə alsaq, bunun üçün artıq harasa getməyə ehtiyac yoxdur. Çünki elektron xidmət vasitəsilə bu sənədin surətini indi çox sadə yolla əldə etmək mümkündür".

**Tibbi şəhadətnamənin kağız forması ləğv ediləcək**

Mərkəz direktoru bildirib ki, hazırda bu xidmətin təkmilləşdirilməsi üzərində işlər və müzakirələr də aparılır. Belə ki, gələcəkdə bu xidmətdən istifadənin genişləndirilməsi vətəndaşların rahatlığı baxımından yeni imkanlar yarada bilər: "Bu sahənin inkişafı növbəti yeniliklərə yol aça bilər. Belə ki, hər doğulan uşaq barəsində məlumatlar Ədliyyə Nazirliyinə də məlumat mübadiləsi şəklində ötürülür. Ola bilər ki, tibbi şəhadətnamənin kağız forması gələcəkdə tamamilə yığışdırılsın. Hazırda bu istiqamətdə Ədliyyə Nazirliyi ilə müzakirələr aparılır".




www.e-gov.az

**“Elektron hökumət” bütün sahələrin inkişafına təkan verəcək**

İstər tibb, istərsə də digər sahələrdə bu gün həyata keçirilən xidmətlərin elektronlaşdırılmasının başında isə "Elektron hökumət” layihəsi dayanır. Mərkəz direktoru bu layihənin yaratdığı üstünlüklərdən də danışıb: ""Elektron hökumət” layihəsi çox vacib layihədir. Layihə bütün sahələrin inkişafına, o cümlədən məlumat operativliyinin səmərəliliynə təkan verəcək. Əgər indiyə qədər qurumlar öz aralarında mübadiləni kağız arayış formasında həyata keçirirdilərsə, bu layihə müxtəlif qurumların bir-birlərinin məlumat bazalarından sürətli, operativ istifadə etməyə imkan verir. Arayış, sorğu mübadiləsi əvvəllər günlər, həftələr apararaq, xeyli vaxt tələb edirdi. İndi isə informasiya sistemlərinin "Elektron hökumət” portalı vasitəsilə cəmləşdirilməsi məlumat bazalarından səmərəli istifadəyə yol açır”.

**Səhiyyə sistemində də interaktiv xidmətlərin artırılmasına ehtiyac var**

Amma gətirdiyi faydalarına baxmayaraq, bu gün dövlət qurumlarının "Elektron hökumət” portalına inteqrasiyasında bir ləngimə var. Vətəndaşlar yalnız informativ deyil, daha çox tələbat duyulan sahələr üzrə, o cümlədən səhiyyə sistemində də interaktiv xidmətlərin göstərilməsinin arzusundadırlar. Hələlik isə Səhiyyə Nazirliyi ilin sonuna qədər prosesi yekunlaşdıracağı ilə bağlı vəd verir.

Qeyd edək ki, Səhiyyə Nazirliyinin elektron xidmətlərinə "Səhiyyə Nazirliyinə göndərilmiş sorğuların və məktubların icrasının müraciət edənlər tərəfindən onlayn izlənilməsi”, "Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üçün müraciətin və sənədlərin qəbulu”, "Tibbi müayinə kartının online sifarişi”, "Daxili istehsal məhsullarına və idxal edilən məhsullara gigiyenik sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, "Tibbi kadrların vahid registrindən məlumatların verilməsi”, "Ambulator tibb müəssisələrindən evə çağırış və ya həkim qəbuluna yazılma”, "Vətəndaşlara elektron sağlamlıq kartı üzrə məlumatların verilməsi”, "Obliqat Qruplara aid vətəndaşlara müayinələrdən keçmələri barədə məlumatın verilməsi” daxildir. Bundan başqa, nazirlik tərəfindən təqdim edilən elektron xidmətlər siyahısında "Müəssisə rəhbərlərinə obliqat qrupuna daxil olan işçiləri barədə məlumatın verilməsi”, "Dövlət tərəfindən dərman vasitələri ilə təmin olunan xəstələrə şəxsi məlumatları, onların qeydiyyatı və aldığı dərmanlar barədə məlumatın verilməsi”, "Vətəndaşların Axtarışı Sistemi”, "Özəl tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılığın (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, "Dərman vasitələri haqqında məlumat verilməsi”, "Profilaktik peyvəndlərin vaxtı barədə SMS vasitəsilə xəbərdarlıq verilməsi”, "Tibb müəssisələri barədə məlumatların verilməsi”, "Tikinti üçün torpaq sahəsinin sanitariya normalarına və qaydalarına, gigiyena normativlərinə uyğunluğuna dair rəyin verilməsi”, "Tikinti və yenidən qurma layihələrinə sanitariya-epidemioloji rəyin verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, "Rentgen kabinetinin istismarına icazə verən sanitariya-epidemioloji rəyin verilməsi”, "Radioaktiv maddə və materialların daşınması üsullarının və şəraitinin sanitariya qaydalarına uyğun olması barədə sanitar-epidemioloji rəyin verilməsi”, "İonlaşdırıcı şüa mənbələri ilə işlərə icazə verən sanitar-epidemioloji rəyin verilməsi”, "Doğum haqqında tibbi şəhadətnamə elektron registrindən məlumatların verilməsi” yer alıb.

# Müəllimlər “www.e-gov.az”-da daha sadə yolla qeydiyyatdan keçəcəklər

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) göstərilən xidmətlərin daha da yüksəldilməsi məqsədilə ictimaiyyətdən, əhalinin ayrı-ayrı nümayəndələrindən daxil olan sorğu, istək və təklifləri nəzərdən keçirməklə, məqbul və faydalı variantlar əsasında təkmilləşdirmə işlərini davam etdirir.**

MHM hazırda daxil olan rəy və təklifləri dəyərləndirərək, “www.e-gov.az” portalından istifadə imkanlarının genişləndirilməsi və portala qeydiyyat prosesinin sadələşdirilməsi üzərində işlərə başlayıb. Həyata keçiriləcək növbəti yenilik isə bu dəfə təhsil sahəsində çalışanları əhatə edəcək. Artıq MHM-də qeydiyyat prosesi üçün tələb edilən sənədlərin minimallaşdırılması ilə bağlı araşdırma işlərinə başlanılması üçün müvafiq tapşırıqlar verilib. Araşdırmanın yekunu olaraq, müəllimlərin daha sadələşdirilmiş formada qeydiyyatdan keçməsi məsələsi həllini tapacaq.

Belə ki, “Elektron hökumət” portalında Təhsil Nazirliyi tərəfindən “Müəllimlər haqqında məlumatlar” elektron xidməti təqdim olunmaqdadır. MHM qeydiyyat sistemini bu xidmətlə əlaqələndirməklə tələb olunan sənədləri müraciət edən istifadəçinin müəllim olduğunu təsdiqləyən sənədlə əvəz etməyi nəzərdə tutur.

Qeyd edək ki, “Elektron hökumət” portalına daxil olmaq üçün istifadəçilərə kod və parolların internet vasitəsilə verilməsi” xidmətinə əsasən, hazırda istifadəçilərə kod və parolların internet vasitəsilə verilməsi üçün onlayn müraciət qəbul edilir və nəticəsi barədə istifadəçiyə məlumat verilir.

İstifadəçi “Elektron hökumət” portalına daxil olmaq üçün kod və parolu heç bir yerə müraciət etmədən internet vasitəsilə əldə edir. İnteraktiv və ödənişsiz formada həyata keçirilən bu xidmətin göstərilməsi üçün tələb olunan sənədlərə şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, ümumvətəndaşlıq pasportu və Dövlət Sosial Sığorta şəhadətnaməsi daxildir. Sözügedən sənədlərin təqdim olunma formasına gəlincə, şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və pin kodu daxil edilir; sürücülük vəsiqəsinin seriya nömrəsi daxil edilir; ümumvətəndaşlıq pasportu - xarici pasportun seriya nömrəsi daxil edilir. Eyni zamanda Dövlət Sosial Sığorta şəhadətnaməsinin seriya nömrəsi daxil edilir.

**“www.e-gov.az”** portalına **“Elektron hökumət” sistemi tərəfindən vətəndaşa verilmiş kod ilə daxil olmaq təklif olunan vasitələrdən biridir.** Bu bölmədə fiziki və hüquqi şəxslər, o cümlədən dövlət qulluqçuları “Elektron hökumət” sistemi tərəfindən onlara təqdim edilən kod vasitəsilə autentifikasiyadan keçərək xidmətlərdən istifadə edə bilərlər.




**Digər** giriş vasitələrinə isə **"RİTN tərəfindən verilən e-imza kartı ilə daxil olmaq", "Mobil autentifikasiya sertifikatı ilə daxil olmaq", "Smartfon ilə daxil olmaq" bölmələri daxildir. "RİTN tərəfindən verilən e-imza kartı ilə daxil olmaq"** bölməsində fiziki və hüquqi şəxslər RİTN tərəfindən onlara təqdim edilən e-imza sertifikatları vasitəsilə autentifikasiyadan keçərək xidmətlərdən istifadə edə bilərlər. **"Mobil autentifikasiya sertifikatı ilə daxil olmaq"** bölməsində yalnız mobil imza sertifikatlarının sahibləri autentifikasiyadan keçərək xidmətlərdən istifadə edə bilərlər (smartfon və planşetlər üçün).

**"Smartfon ilə daxil olmaq"** bölməsində isə yalnız mobil imza sertifikatlarının sahibləri smartfon vasitəsilə QR-kodu skan edib autentifikasiyadan keçərək xidmətlərdən istifadə edə bilərlər. Burada mobil imzası olan smartfon autentifikasiya vasitəsi kimi istifadə olunur.

"Hamımızın portalı - "Elektron hökumət"in fəaliyyətinin daha səmərəli təşkili üçün Məlumat Hesablama Mərkəzi hər kəsin bu istiqamətdə təkliflərini gözləyir.

# Normativ-hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi qaydaları

**Portalda yaradılan bu xüsusi bölmə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 25 iyun 2012-ci il tarixli 142 nömrəli Qərarının icrası ilə əlaqədar yaradılmışdır.**

Qaydalara əsasən hazırlanan bölmənin əsas məqsədi layihələrin razılaşdırılmağa göndərildiyi andan ictimai və ya peşəkar müzakirəyə çıxarılmasından ibarətdir. ***Bunun üçün layihələr informasiya sahibləri tərəfindən portalda yerləşdirilməlidirlər.***

"E-gov.az" "Elektron hökumət" portalının müvafiq bölməsindən (https://projects.e-gov.az/AllServices.aspx) Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ-hüquqi aktların layihələri ilə tanış olmaq olar. Hər bir vətəndaş yuxarıda göstərilən ünvana daxil olaraq informasiya sahibinin və layihənin adını seçib, layihələrin mətni ilə tanış ola, həmçinin müzakirənin bitmə müddəti ərzində öz təkliflərini göndərə bilər.

# "Elektron hökumət" portalına daxil olanlar haqda növbəti statistik məlumatlar açıqlanıb

**Portala daxilolmaların statistik uçotunun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2013-cü ilin oktyabr ayının 1-nə qədər portala daxil olanlar haqda detallı məlumatlar təqdim olunur.**

Qrafikdən (*şəkil 1*) də göründüyü kimi, portala ümumilikdə 359 187 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 212 281 nəfər olub. Belə ki, 212 281 nəfər ümumən 359 187 dəfə portala baxıb və 501 253 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 1 252 426 müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 42 saniyə olub.

Statistika portala daxilolma səviyyəsinin, eyni zamanda elektron xidmətlərdən istifadə vəziyyətinin getdikcə yüksəlməsini təsdiqləyir.

www.e-gov.az




ŞƏKİL 1

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 59.3% yeni istifadəçilər, 40.7% isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün sentyabr ayının statistikasına (*şəkil 2*) nəzər salsaq, bu dövrdə portala 34 124 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 21 923 nəfər olub. Həmin şəxslər 126 064 müxtəlif səhifələrə keçid ediblər, 78 919 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 08 saniyə təşkil edib. Sentyabr ayı ərzində portala müraciət edənlərin 51.1% yeni istifadəçilər, 48.9% isə təkrar müraciət edənlər təşkil edib. Bu rəqəmlər də kifayət qədər yaxşı hesab olunur və bütün istiqamətlərdə dinamik artım müşahidə olunmaqdadır.

Portalda işləmə müddəti artıb, portala 2013-cü ilin sentyabr ayı ərzində təkrar müraciət edənlərin sayı 48.9% təşkil edib. Ümumiyyətlə, son statistik məlumatlar bir daha sübut edir ki, hazırkı dönəmdə portalın fəaliyyətinin daha da genişləndirilməsi, o cümlədən müvafiq qurumlar tərəfindən yeni elektron xidmətlərin təqdim edilməsi üçün münbit şərait mövcuddur.

Belə ki, bütün elektron xidmətlərin "e-gov"-a inteqrasiya olunub, tam gücü ilə fəaliyyət göstərməsi üçün Portalın operatoru tərəfindən müvafiq texniki mühit yaradılıb və bunun üçün bütün lazımi infrastruktur, imkanlar mövcuddur. Portal bir vasitə, bir platformadır, artıq onun mövcudluğu populyarlaşmaqda və tanınmaqdadır. Bu imkanlıq xidmət təminatçılarımızın daha praktik elektron xidmətlər təqdim etmələri və mövcud xidmətlərin portala inteqrasiya olunmasını sürətləndirməyi şərtləndirir.




Portala daxil olmaq üçün sadələşdirilmiş kod parol alan istifadəçilərin sayı bu gün 20 000-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər.

Portalın "Facebook" sosial şəbəkəsində istifadəçilərinin sayı isə 80 264 nəfər təşkil edir.




ŞƏKİL 2

## Sentyabr 2013-cü il dövrü ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 7 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 | 3 |
| 3 | Sənaye və Energetika Nazirliyi | - | - |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | - | - |
| 5 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 6 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 4 | 5 |
| 7 | Dövlət Gömrük Komitəsi | 3 | 283 |
| 8 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 11484 |
| 9 | Dövlət Statistika Komitəsi | 3 | 25 |
| 10 | Vergilər Nazirliyi | 10 | 1412 |
| 11 | Ədliyyə Nazirliyi | 8 | 937 |
| 12 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 3 | 20 |
| 13 | Fövqəladə Hallar Nazirliyi | 3 | 31 |
| 14 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 15 | Səhiyyə Nazirliyi | 18 | 696 |
| 16 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | - | - |
| 17 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - |
| 18 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 6 | 87 |
| 19 | Dövlət Dəniz Administrasiyasi | - | - |
| 20 | Təhsil Nazirliyi | 3 | 745 |
| 21 | Gənclər və İdman Nazirliyi | - | - |
| 22 | Əmlak Məsələləri Dövlət Komitəsi | 5 | 210 |
| 23 | İqtisadi İnkişaf Nazirliyi | - | - |
| 24 | Kənd Təsərrüfatı Nazirliyi | 1 | 1 |
| 25 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 8 | 1390 |
| 26 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 27 | Daxili İşlər Nazirliyi | 3 | 1580 |
| 28 | Dövlət Sərhəd Xidməti | 1 | 4 |
| 29 | Müəllif Hüquqları Agentliyi | 1 | 1 |
| 30 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 3 | 160 |
| 31 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 32 | "AzərEnerji" ASC | - | - |
| 33 | "AzərSu" ASC | 1 | 353 |
| 34 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 33 |
| 35 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 227 |
| 36 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 45 | 59219 |
| 37 | Diasporla İş Üzrə Dövlət Komitəsi | 1 | 6 |
| | **CƏMİ** | **150** | **78919** |

www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.10.2013*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 12 | 12 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 9 | 40 | 40 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 7 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 12 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 16 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 18 | 18 | 19 | 19 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 9 | 25 | 25 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 4 | 7 | 16 | 5 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 1 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 6 | 21 | 21 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 15 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 2 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 2 | 1 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 0 | 0 | 1 | 4 | 0 |
| **CƏMİ:** | | **417** | **193** | **256** | **432** | **339** |

## 01.09.2013 – 30.09.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 56663 |
| 2 | Sığorta edənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3079 |
| 3 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 2686 |
| 4 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2585 |
| 5 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1396 |
| 6 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 842 |
| 7 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 748 |
| 8 | PİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 737 |
| 9 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 615 |
| 10 | Məşğulluq orqanları vasitəsilə iş axtarışı | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 540 |

## 01.10.2013-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 37 | 81 | 118 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.09.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 11986 | 494 | 3473 | 15953 |

© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az